# “ATALAR ÜÇDƏN DEYİB”

## 4. Üçəcən deyiliən sözün dəyəri

Yazıçı Ağəddin Mansurzadə sənədli povestin 3-cü hissəsini xeyli fasilədən sonra yazıb; çox güman ki, bu yazı əsərin tamamlanması ehtiyacından, müəyyən mənəvi tələbatdan irəli gələn zərurətlə qələmə alınıb. Bir növ sənədli povestin əvvəlinci iki hissəsində verilmiş hadisələrin təfərüatla verilməsinə, bəzi açılmayan məqamların geniş şərhinə Həsr olunub. Müəllif doğru olaraq 3-cü hissədə zamanın təhlilinə xeyli yer ayırır. Şübhəsiz bu zaman həm Şəddad Cəfərovun dövrünü əhatə edir, həm də müəllifin yaşadığı dövrə aiddir. Müəllif elmi mühitdə Şəddad Cəfərovu, ədəbi mühitdə öz mövqeyini müəyyən hadisələrin fonunda təsvirə gətirir. İstər-istəməz bu təsvirlərdə ədəbi qəhrəmanın taleyinə mühitinin münasibətini görürük. Bu fonda dəqiq cizgilərlə müəllifin özünün də kimliyi görünür.

Azərbaycan ziyalısının tale yolu sovet dövründə verilmiş imkanlar daxilində milli kökə bağlı insanların əqidələri və inamları uğrunda mübarizə əslində zamanları aşacaq tarixi həqiqətlər kimi qavranılır.

O dövrdə Azərbaycanda poliqrafiya üzrə elmi-nəzəri mühit yox idi, demək müdafiə şurasıda yox idi. Gənc tədqiqatçı vətəndən uzaqda, həm də elmi tədqiqat üçün ana dili olmayan bir dildə elmi əsərini yazıb araya gətirməli, hədsiz sərt və yüksək tələblər səviyyəsində olan mühitdə müdafiə etməli idi. Opponentlər üçün yalnız elmi mahiyyət meyar idi. Bu mənada onlar gənc tədqiqatçının qarşısında güzəştsiz tələblər qoyurdular. Əsərdən oda görünür ki, tədqiqatçı ona ayrılmış vaxt ərzində öz işini yüksək səviyyədə başa çatdırıb. Elə bu səbəbdən də müdafiəyə çox inamlı olub. O, dostu Ağəddin Mansurzadəyə - yəni, əsərin müəllifinə teleqram vuraraq qonaq qismində müdafiədə iştirak etməyini istəyir.

Əsərin 3-cü hissəsinin yazılması üçün bu teleqram xüsusi əhəmiyyət kəsb edir. Ağəddin Mansurzadə həmin teleqramı işlədiyi qəzetin baş redaktoruna göstərib Moskvaya getmək üçün icazə almaq istəyir: “Elə bildim öz hesabıma bir həftəlik icazə verir. Nə olar ki, elə bu da əladır, buna da şükür, verməsəydi nə edərdim? Bilirdim ki, Yusif müəllim “yox” deməz, çünki kişi adamdı. Bu cür adamların dilində “yox” sözü yoxdur.

Yusif müəllimin mülayim səsi məni düşüncələrdən ayırdı:

-Hə, canım, yaz ki, Moskvada yaşayan Azərbaycanlıların həyatından yazmaq üçün. Allah səndən razı qalsın Yusif müəllim! Məni sevindirdiyin üçün Allah da səni sevindirsin!

Fikir etməyə, darıxmağa heç bir əsasım yoxdu.

Bundan gözəl, bundan əla nə ola bilər?! Atalar buna deyiblər, həm ziyarət, həm ticarət. Mən əlbəttə nə ticarətə gedirdim, nə də ziyarətə. Moskvanı görməmiş deyildim ki. Sadəcə olaraq dostumun müdafiəsində iştirak etmək istəyirdim, onu da Allahtaala elə düzdü, qoşdu ki, bir kimsədən asılacağım, umacağım olmadı. Yusif müəllim isə səbəbkar oldu. Adı peyğəmbər adı idi, Yusif müəllimin elə özü də peyğəmbər kimi kişi idi. Yatdığı torpaq behişt olsun, qəbri nurla dolsun! Burada ilk baxışdan Şəddad Cəfərova dəxli olmayan çox maraqlı məqamlar üzə çıxır. Qəzetin baş redaktoru Yusif Əzimzadənin gənc Jurnalistə Ağəddin Mansurzadəyə münasibəti, eləcə də Moskvada elmi işini müdafiə etməyə hazırlaşan gənc tədqiqatçı həmyerlimizə yəni Şəddad Cəfərova münasibəti. İsti hərarətli xatirə diliylə çatdırılır.

Burada yazıçı Yusif Əzimzadənin ağsaqqallığı, müdrikliyi, xüsusilə humanizmi o qədər dəqiq və aydın cizgilərlə verilib ki, onun obrazını oxucu bu günün canlı adamı kimi qavrayır.

Sovet ideoloji basqıları içərisində belə ziyalıların varlığı əslində Azərbaycan xalqını öz içində çürüməkdən hifz edib, qoruyub. Yusif Əzimzadənin gənclərə münasibəti, onlara inamı, həyatın inkişafına sağlam mövqe sərgiləməsi bu gün üçün də örnək ola bilər. Əslində elə belə əsərlərin yaradılması keçmişin parlaq səhifələrinin yaşarılıq almasına xidmət edir.

Beləliklə həyatın qaynar axarında bir-birinə mənəvi təlabat kimi can atan insanların həyatın ağır sınaqlarından necə keçdiyinin şahidi oluruq. İnsan münasibətləri səmimi, təmənnasız istəklər üzərində bərqərar olanda xüsusi mühit yaradır. Bu mühit zəncirvari olaraq başqalarını da özlərinə cəzb edə bilirlər. Ağəddin Mansurzadə dostu Şəddad Cəfərovla öz arasında yaranmış sağlam əlaqələrin əhatə dairəsindən danışmaq üçün əvvəlcə bu mühitin mahiyyətini, gündəlik rəng çalarlarını sözə gətirir. Çətin iş, ailə problemləri axınla gələn qayğıların içərisində bir-birini unutmadığlarını ən başlıcası həmin dövürdə müəyyən gərginliklə qarşılaşdığlarını, işsiz olduqlarını da diqqətə çəkir. Ümumiyyətlə işsizlik, maddi çətinlik çox vaxt insanların iradələrini sınağa çəkir. Belə gərginlik altında insanlığını itirmədən, ləyaqətini qoruyaraq dostluğu hifz edərək səmimi həyat tərzi yaşamaq sınaqlardan keçməkdir, mərdlikdir, qəhrəmanlıqdır. Ağəddin Mansurzadənin təsvirlərindən görünür ki, Şəddad Cəfərov ilk gəncliyindən üzü bəri belə çox sınaqlarla qarşılaşıb, mənəvi bütövlüyü sayəsində böyük insanlıq yoluna sədaqətli olub. İki dostun doğmalıq sərhədləri bu gün üçün də dəyərli nəticə çıxarmalı həyat izləridir. Əsərdə oxuyuruq: “Son illər və aylar Şəddadla tez-tez görüşməyim yəqin ki, ikimizin də işsiz-gücsüz olmağımızdan irəli gəlir. Ancaq sağa-sola baxıb görürəm ki, işsiz təkcə biz ikimiz deyilik, bizim kimi işsizlər, daha doğrusu oyundan kənar olanlar nə beşdir, nə on. Çoxdur, lap çox, yəni minlərlə, yüz minlərlə.

...Və nə yaxşı ki, Şəddad Cəfərov kimi işbilən, his-pas atmış “ölü” aqreqatlara can verən oğullar, mütəxəssislər var və onları əqidələrindən, düz yollarından heç kim, heç nə döndərə bilmir. Nə yaxşı!

Şəddadla telefon söhbətindən sonra, daha doğrusu yeni vəzifədə onu təbrik etdikdən sonra bir gün həmin mətbəəyə səfər etdim. Şükür Allaha lap aqreqatlar sükut buzunu qırıb səssəsə verib uğuldayırdılar. Deməli həyat var, mətbəə yavaş-yavaş ayağa qalxır. Buna görə bir daha Şəddadı təbrik etdim və bir gün gələcək bu mətbəənin tam gücü ilə işləyəcəyinə inandığımı bildirdim”. Axır ki, daha bir gərginlik mərhələsi ötür. Şəddad müəllim özünə qarşı soyuq münasibəti dəf edə bilir. Yeni iş yeri, az qala dağılmış, iflasa uğramış müəssisəni canlandırmaq, həyata qaytarmaq ona həvalə olunur. Əlbəttə çevik düşüncə sahibi olan mütəxəssis kimi o bu işlərin hamısının öhdəsindən gəlir. Və burada həyat yeni insanları səhnəyə gətirir. Bu səhnənin yaddaqalan yaradıcısı Şəddad Cəfərov, sözə gətirəni isə Ağəddin Mansurzadə idi. Əsərin bu hissəsində Şəddad Cəfərovun yeni müəssisədəki fəaliyyətindən, yeni adamlarla işləmək, ünsiyyət qurmaq bacarığından söhbət açan səhifələr çoxdur. Amma yeni iş yerindəki, qədim tarixi olan mətbəədəki insanları xarakterizə edərkən bu günün oxucusu kimi özümə tanış olan mənzərələri də gördüm. Bu insan mənzərələrinin fonunda artıq mənimlə də doğmalaşmış şəxslər az deyil. Mən əsərin bu hissələrini də xüsusi maraq və zövqlə oxudum: “Şəddadın kabinetində oturub söhbət edirdik. İçəri yaşı 40-45 olan




saçları vaxtından tez ağaran, dolu bədənli, güləruz, mehriban çöhrəli bir adam içəri daxil oldu. İkimiz də birbirimizi çoxdankı tanışlar kimi güləgülə qarşıladıq, sonra da bir-birimizə ad-familyamızı dedik. Və bu ad familiya Şakir Acalov dərhal yadımda qaldı”. İstər-istəməz həmin mühitlə tanış olan oxucu üçün də maraqlı xatirələr baş qaldırır. Duyğular oyanır. Burada belə bir həqiqətə inanırsan ki, əgər insanlara qarşı səmimi, doğma yanaşa bilsən, insanlar da səni sevərlər, unutmazlar, ən azı asanlıqla unutmazlar. İndi hadisələrin bu yerində müəllif Abbas Abdullanın adını çəkir. Və bizim də Abbas Abdulla ilə səmimi dostluğumuz gözlərimiz önündə canlanır. Azərbaycanın görkəmli şairi Abbas Abdulla Azərbaycanın istiqlalı uğrunda əqidəylə, inamla mübarizə aparıb. Qardaş Türkiyədə Azərbaycanı ləyaqətlə təmsil edib, şərəfli diplomat həyatı yaşayıb. Ümumiyyətlə Abbas Abdulla kimi insanlar Tarixə qovuşsalar da canlı abidə olaraq öz xalqı ilə Vətəni ilə əbədi yaşayacaq. Görünür əsərin bu yerində müvafiq təəssüratı Abbas Abdullanın zəngin mənəvi həyatı yaradır. Ağəddin Mansurzadənin təsvirində Abbas Abdulla yenidən ruhumuza qonaq gəlir və yaddaşımızdakı Abbas Abdulla ilə qovuşur. Şakir Acalov təmsil elədiyi nəslin adını hər vaxt uca tutur.

Ağəddin Mansurzadənin “Atalar üçdən deyib” sənədli povestinin bu hissəsində insanın mənəvi zənginliyinə güzgü tutan parçaları oxumaq oxucu üçün də maraqlı olar: “Bu familiya mənə yaxşı tanışdı, dünyanın hansı bir güşəsində Acalov familiyası varsa, deməli dostum Abbas Abdulla Acalov nəsilindəndirlər. Yaxşı soruşmaq ayıb olmasın, sən Abbas Abdullanın nəyisən? - deyib onu söhbətə dəvət etdim.

Müsahibim dərhal cavabını verdi:

-Düz deyirsiz, ağsaqqal, bizim familiya nadir familiyadır. Dünyanın hansı yerində Acalov familiyasında bir kimsə varsa, deməli o, bizdəndi. Abbas Abdulla isə mənim əmimdir!

Müsahibim bu sözləri deyəndən sonra biz uzun illərin dostu kimi mehribanbcasına qucaqlaşdıq, bir-birimiz haqqında gözəl-gözəl sözlər dedik, sonra aydın oldu ki, ikimiz də bir-birimizi tanıyır və bir-birimiz haqqında müəyyən məlumatımız var. Birinci Şakir ürəyimi açdı: - Ağsaqqal, mən sizi yaxşı tanıyıram. Əmim Haqqınızda o qədər xoş sözlər deyib, yaxşı söhbətlər edib ki, bir maşına yükləsən, götürməz. Sizinlə bir neçə dəfə müxtəlif məclisdə olmuşam. Hər məclisdə sözünüz, iziniz qalıb. Hansı qohum-qardaş evində xeyir iş, toy-düyün varsa, qız verib, qız alırlarsa Abbas əmim sizin bir elçiliyinizdən ağız dolusu danışır. Deyir ki, əsl dost belə olar!

Mən də Şakirlə tanışlığımdan məmnun qaldığımı bildirdim, xeyli zarafat etdik, haqqında xoş sözlər dedim:

-Mənim Şakir adda iki dostum var, üçüncüsü sən olursan. Üçüncü yer heç də səni narahat etməsin hər şey qabaqdadır, çox şey də özündən asılıdır. Yəni onlardan yaxşı oğlan olsan, birinci yeri tuta bilərsən.

-Çalışaram, ağsaqqal! Mənimçün elə üçüncü yer də yaxşıdır. Eyni zamanda bu da xoşdur ki, siz mənim əmimlə dostsuz, mən də Şəddad müəllimlə dostam. İnşallah dörd dost əl-ələ verib yaxşı bir iş görə bilərik.

-İnşallah!

Doğrusu, Şakir xoşuma gəldi. Ona görə yox ki, dostumun qardaşı oğludur, ona görə ki, bu yaxşılıq onun nurlu simasında, qanında, canındadır, kökündə, soyadındadır və bunu ondan heç kim ala bilməz!

Elə Şəddad da onun haqqında belə demişdi.

Demişdi ki, bir-birimizi yaxşı tanıyır, yaxşı başa düşürük. Uzun illər bir sistemdə çalışmışıq bir-birimizlə əməkdaşlıq etmişik, dost münasibətlərimizi də həmişə qoruyub saxlamışıq. Mən poliqrafiya mütəxəssisiyəm, o kitab ticarəti mütəxəssisi. Əl-ələ verib işləyirik. Həm dostluğumuzu davam etdirəcəyik, həm də müəssisəni ayağa qaldırıb gerilikdən çıxardacayıq”. Müsahibə xarakterli bu parçalar bir-biri ilə elə sıx bağlıdır ki, arasındakı mətləbi şərh etməyə lüzum qalmır.

Müəllif əsərin 3-cü hissəsinin sərlövhəsini həm də kitabının adına verib. Başqa sözlə üçəcən verilən sözlərin hikməti, dəyəri burada öz yerini alır. Bu hissədə Ağəddin Mansurzadə təkrar xatirələrə qayıdır. Haşiyyələrdən istifadə ilə əsərini daha da dolğunlaşdırır.

Əsərin sonluğu kövrək notlar üzərində qələmə alınır. Ömür karvanı haqqında düşüncələr sözə gəlir.

Amma həyatın elə yaşarı izləri var ki, onu zamanın heç bir tufanı, küləyi tarixi üzündən silə bilmir.

*30.01.2020*